# Kazus

## Səlim İsmayılovun işi

1. Səlim İsmayılov (bundan sonra – Ərizəçi) özəl universitetlərin birində menecment fakultəsində təhsil alır. O, 2011-cu ilin avqust ayının 25-də "Qarabağ" və "İnter" komandaları arasında keçirilən yarışdan sonra baş verən iğtişaşlarda iştirakına və ictima qaydanı bərpa etməyə çalışan polislərə və daxili qoşunların əsgərlərinə qarşı zorakılıqda təqsirli bilindi və barəsində həbs qəti imkan tədbiri seçildi.
2. Ərizəçi istinataq təcridxanasında saxlandığı dövrdə - avqustun 27-də Respublikanın televiziya kanallarından birinin "Kriminal" verlişinin əməkdaşları Nərimanov Rayon Prokurorluğuna gəldilər. Onlar Ərizəçinin qohumlarının tele şirkətə müraciət edərək pis rəftara məruz qalması barədə məlumat verdiklərini bildirdilər, bu məsələyə aydınlıq gətirilməsini xahiş etdilər. Müstəntiq bildirdi ki, Ərizəçi iğtişaşlarda iştirakına, ictima qaydanı bərpa etməyə çalışan polislərə və daxili qoşunlarının əsgərlərinə qarşı zorakılıq tətbiq etdiyinə görə məsuliyyətə cəlb olunub və onun təqsiri iş materialları ilə tam sübuta yetirilib; Ərizəçinin qohumlarının dedikləri isə iftira və böhtandan başqa bir şey deyil və bu yolla onlar istintaqa təzyiq göstərmək istəyirlər.

Verlişin əməkdaşları Ərizəçidən də müsahibə götürmək istədiklərini bildirdilər. Müstəntiq istintaq sirrinin yayılmasının qarşısının alınmasını əsas göstərməklə, onun otağında aparılması şərti ilə müsahibəyə razılıq verdi.

Ərizəçi isə bir şərtlə müsahibə verməyə razılığını bildirdi ki, müstəntiq otaqdan çıxsın. Lakin müstəntiq qəti şəkildə bundan imtina etdi. Ərizəçi bu halda müsahibə verməkdən imtina etdi.

3. Şənbə günü – avqustun 31-də "Kriminal" verilişində material efirə getdi. Verilişdə Ərizəçiyə münasibətdə pis rəftara yol verildiyi barədə onun anasının dedikləri ilə bağlı jurnalistin çəkdiyi sujet təqdim edildikdən sonra müstəntiqin münasibətini açıqlayan sujet verildi. Daha sonra səbəbləri açıqlanmamaqla Ərizəçinin müsahibə verməkdən imtina etdiyi bildirildi. Verilişin sonunda iğtişaşlardan ümumi görünüşü 30 saniyəlik epizodlar təqdim edildi. Orada aksiya iştirakçılarının polisləri, onların maşınlarını daş-qalaq etmələri barədə görüntülər var idi.

4. Veriliş efirə gedən günün ertəsi (sentyabrın 1-də) Ərizəçi müstəntiqin hərəkətindən rayon prokuroruna şikayət göndərdi. Şikayətdə istintaqçının onun təqsirsizlik prezumpsiyası hüququnu pozduğunu bildirdi. O, müstəntiqin bu hərəkətini qanunsuz sayılması, qərəzli olduğu üçün istitaqından uzaqlaşdırılması və məsuliyyətə cəlb edilməsini xahiş etdi.

5. Sentyabrın 8-də Ərizəçi Rayon Prokuroru K.Məmmədovdan məktub aldı ki, müstəntiqin hərəkətlərində qanun pozuntusu müəyyən edilmədiyi üçün onun işin istintaqından kənarlaşdırılması və məsuliyyətə cəlb edilməsi üçün əsas yoxdur. Rayon Prokuroru gəldiyi nəticəni əsaslandırmaq üçün aşağıdakı arqumentlər göstərdi:

1) İctimaiyyətin kriminal sahədə baş verənlər barədə məlumat almaq hüququ var. Müstəntiq bu məlumatı media vasitəsilə cəmiyyətə ötürməklə hər hansı qanunazidd hərəkətə yol verməyib.
2) Müstəntiq jurnalistə verdiyi müsahibənin heç bir hissəsində Ərizəçini cinayətkar adlandırmayıb.
3) Ərizəçiyə müsahibə verməyə şərait yaradıldığı halda, o, bundan özü imtina edib.

## Tapşırıqlar

### 1-ci tapşırıq

1. Bu iş üzrə Azərbaycan qanunvericiliyinin hansı müddəalarının pozuntusunu müəyyənləşdirin.

2. Bu iş üzrə Azərbaycan Respublikasının cinayət prosessual və digər qanunvericiliyinin problemli məsələləri müəyyənləşdirin.

### 2-ci tapşırıq

1. Bu iş üzrə Konvensiyanın müddəalarının pozulub-pozulmadığını müəyyənləşdirin.
2. Konvensiyanın müddəalarının pozulduğu qənaətinə gəldiyiniz halda, Avropa İnsan Hüquqları Məhkəməsinə hazırlanacaq şikayətin qəbuledilənliyi üzrə Ərizəçinin və Hökumətin mövqeyi ilə bağlı arqumentləri müəyyənləşdirin.
3. Konvensiyanın maddələrinin pozuntusu və onların rədd edilməsi ilə bağlı irəli sürülən arqumentlər əsasında Avopa İnsan Hüquqları Məhkəməsinin hansı nəticələrə gələ biləcəyini müzakirə edin.